**AZƏRBAYCAN RESPUBLİKASI**
**İCBARİ TİBBİ SIĞORTA ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN**

# İDARƏ HEYƏTİNİN QƏRARI

№ 43

**Bakı şəhəri** "10" dekabr 2021

**"Tibb müəssisələrində ixtisaslı kadr çatışmazlığının aradan qaldırılmasına dair 2022-2023-cü illər üçün Proqram"ın təsdiq edilməsi haqqında**

"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində kadr çatışmazlığı probleminin aradan qaldırılması, qabaqcıl üsulların tətbiqi, kadr potensialının gücləndirilməsi və tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi məqsədilə "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanın 3.2-ci bəndini və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi"nin 4.5.21-ci yarımbəndini rəhbər tutaraq, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti

**Qərara alır:**

1. "Tibb müəssisələrində ixtisaslı kadr çatışmazlığının aradan qaldırılmasına dair 2022-2023-cü illər üçün Proqram" təsdiq edilsin (əlavə olunur).
2. Bu Qərarın icrasından irəli gələn maliyyə məsələlərinin həlli İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Maliyyə departamentinə (R.Həsənov), insan resursları ilə bağlı məsələlərin həlli İnsan resurslarının idarəedilməsi və inkişafı departamentinə (M. Əmircanov) tapşırılsın.
3. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin struktur bölmələrinin və filial rəhbərlərinin, o cümlədən "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin və onun tabeliyindəki tibb müəssisələrinin rəhbərlərinin bu Qərarla tanış edilməsi Vətəndaş müraciətləri və sənədlərlə iş departamenti (E.Mikayılov) tərəfindən təmin edilsin.
4. Marketinq və ictimaiyyətlə əlaqələr departamenti (A.Əhmədova) bu Qərarın Agentliyin rəsmi internet saytında yerləşdirilməsini təmin etsin.

5. Bu Qərarın icrasına ümumi nəzarət İdarə Heyəti sədrinin müavini Nigar Bayramovaya həvalə edilsin.

6. Bu Qərar 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minir.

İdarə Heyətinin sədri Zaur Əliyev

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin "10" "dekabr" 2021-ci il tarixli "43" nömrəli Qərarı ilə təsdiq edilmişdir.

İdarə Heyətinin sədri Zaur Əliyev

**Tibb müəssisələrində ixtisaslı kadr çatışmazlığının aradan qaldırılmasına dair 2022-2023-cü illər üçün**

# PROQRAM

## 1. Ümumi müddəalar

1.1. Tibbi Ərazi Bölmələri İdarəetmə Birliyinin (bundan sonra - "TƏBİB") tabeliyində olan tibb müəssisələrində (bundan sonra – tibb müəssisələri) ixtisaslı kadr çatışmazlığının aradan qaldırılması üzrə Proqram" (bundan sonra – Proqram) İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 14 iyul 2021-ci il tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinə dair 2022-2024-cü illər üçün Strateji Planı"nın M4.H4-cü hissəsinə əsasən hazırlanmışdır və tibb müəssisələrində kadr potensialının gücləndirilməsi hədəfinin həyata keçirilməsini təmin edir.

1.2. Proqram aşağıdakıları əhatə edir:

1.2.1. xarici ölkədə təhsil almış həkim-mütəxəssislərin tibb müəssisələrinə cəlb olunması;

1.2.2. orta tibb işçiləri və biomedikal sahəsi üzrə mühəndislərin ixtisaslarının artırılması.

## 2. Proqramın məqsədi

2.1. Proqramın məqsədləri aşağıdakılardır:

2.1.1. tibb müəssisələrində ixtisaslı kadr çatışmazlığının aradan qaldırılması;

2.1.2. tibb müəssisələrində çalışan tibb və qeyri-tibb işçilərinin ixtisaslarının artırılması;

2.1.3. tibb müəssisələrində əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi.

## 3. Xarici ölkədə təhsil almış həkim-mütəxəssislərin tibb müəssisələrinə cəlb olunması

3.1. Tibb müəssisələrində ixtisaslı kadr çatışmazlığının aradan qaldırılması xarici ölkədə (Avropa İttifaqı ölkələri, ABŞ, Türkiyə Cümhuriyyəti) təhsil müəssisələrini bitirmiş həkim-mütəxəssislərin (bundan sonra – həkim-mütəxəssis) tibb müəssisələrinə əmək müqaviləsi əsasında işə cəlb edilməsi yolu ilə təmin edilir.

3.2. Cərrahi və radioloji profilli ixtisaslar üzrə həvəsləndirici əlavələrin məbləği 6500 (altı min beş yüz) manatdan, terapevtik və pediatrik profilli ixtisaslar üzrə isə 5000 (beş min) manatdan az olmamaq şərtilə, həkim-mütəxəssisin əmək haqqı İcbari Tibbi Sığorta üzrə

Dövlət Agentliyinin İdarə Heyətinin 21 yanvar 2020-ci il tarixli 2 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində çalışan səhiyyə işçilərinin əməyinin ödənilməsi Qaydası"na (bundan sonra - Qayda) uyğun olaraq müəyyən edilir.

3.3. Bir həkim-mütəxəssis üçün Proqramın 3.2-ci bəndinə göstərilmiş əmək haqlarının ödənilməsi 1 il müddətinə nəzərdə tutulur.

3.4. Həkimlər xarici təcrübənin, müasir müayinə-müalicə metodlarının tibb müəssisələrində çalışan yerli kadrlara öyrədilməsi, həkimlərin nəzəri biliklərinin və praktik vərdişlərinin yaxşılaşdırılması istiqamətində işlərin görülməsi üzrə öhdəlik daşıyır.

3.5. Müraciət edən həkim-mütəxəssislərin namizəd olaraq seçilməsi Agentliyin İdarə Heyətinin qərarı ilə təsdiq olunan "Xarici ölkədə təhsil almış həkim-mütəxəssislərin namizədliyinin qiymətləndirilməsi üzrə Komissiya"nın (bundan sonra - Komissiya) Əsasnaməsində göstərilən meyarlara əsasən həyata keçirilir. Həmin şəxslərin tibb müəssisələrində işə qəbulu qanunvericiliklə müəyyən edilmiş qaydada aparılır.

3.6. Proqram çərçivəsində Bakı, Gəncə və Sumqayıt şəhərlərində yerləşən tibb müəssisələrinə və ya Komissiyanın qərarına əsasən tibbi ərazi bölmələrində fəaliyyət göstərən maddi texniki bazası yüksək tibb müəssisələrinə üstünlük verilir.

3.7. Proqram çərçivəsində hər il üzrə 3.6-cı bənddə nəzərdə tutulmuş tibb müəssisələrinin hər birinə 10 nəfərdən çox olmamaqla, ümumilikdə 100 nəfər həkim-mütəxəssis (cərrahi və radioloji profilli ixtisaslar üzrə 60 nəfər, terapevtik və pediatrik profilli ixtisaslar üzrə isə 40 nəfər olmaqla) cəlb olunur.

## 4. Orta tibb işçiləri və biomedikal sahəsi üzrə mühəndislərin ixtisaslarının artırılması

4.1. Tibb müəssisələrində çalışan orta tibb işçiləri və biomedikal sahəsi üzrə mühəndislərin ixtisaslarının artırılması Türkiyə Cümhuriyyətinin aidiyyəti qurumları ilə əməkdaşlıq çərçivəsində təlimlərin keçirilməsi yolu ilə təmin edilir.

4.2. Proqram üzrə il ərzində 50 nəfər orta tibb işçisi və 30 nəfər biomedikal sahəsi üzrə mühəndis müvafiq tibb müəssisəsinin rəhbərinin təqdimatı əsasında Komissiya tərəfindən seçilir.

## 5. Proqramın maliyyələşdirimәsi

5.1. Proqramın maliyyələşdirilməsi icbari tibbi sığorta fondunun 2022-ci il üzrə büdcəsində bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.

5.2. Həkim-mütəxəssislərin Qaydaya uyğun olaraq hesablanmış əmək haqlarının (həvəsləndirici əlavələr daxil olmaqla) məbləği Proqramın 3.2-ci bəndində nəzərdə tutulmuş məbləğlərdən aşağı olduğu hallarda, həmin bənddə göstərilmiş minimal məbləğlər müvafiq tibb müəssisənin rəhbərinin sifarişi əsasında icbari tibbi sığorta fondunun 2022-ci il üzrə büdcəsinin ""Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində kadr potensialının gücləndirilməsi layihəsi üzrə xərclər maddəsi"ndə nəzərdə tutulmuş vəsait hesabına, yuxarı olduqda isə icbari tibbi sığorta fondunun 2022-ci il üzrə büdcəsinin "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələri üzrə icbari tibbi sığorta və digər ödənişlər maddəsi"ndə nəzərdə tutulmuş vəsait hesabına maliyyələşdirilir.